**Respublika.** - 2024.- 12 iyun. - № 123. - S. 7.

# Sülh, sabitlik, iqtisadi əməkdaşlıq hövzəsi

## Xəzəryanı ölkələr arasında dostluq, qarşılıqlı hörmət və etimad münasibətləri mövcuddur

**Mustafa Kamal**

***Quru və su sərhədlərinə malik olması, uzun illər davam edən daxili sabitlik, əlverişli iqlim xüsusiyyətləri və dövlətin güclü siyasi iradəsi ilə yaradılan möhkəm hüquqi baza respublikamızın beynəlxalq tranzit daşımaları üçün cəlbediciliyini artırır. Tranzit daşımaları üçün kifayət qədər əlverişli coğrafi mövqedə yerləşən respublikamız son illərdə böyükhəcmli investisiyalar hesabına yaratdığı müasir və şaxələndirilmiş infrastruktur sayəsində bütövlükdə Avrasiyanın yeni nəqliyyat-logistika xəritəsini formalaşdırır. Özünün geniş imkanlarını təqdim edən Azərbaycan Xəzər hövzəsi ölkələri arasında da nəqliyyat əlaqələrinin genişlənməsinə sanballı töhfələr verir. Öz növbəsində, Xəzəryanı ölkələr də respublikamızın səylərini və imkanlarını yüksək dəyərləndirərək yüklərin Azərbaycan üzərindən daşınmasına getdikcə daha çox üstünlük verirlər.***

Azərbaycan regional əməkdaşlığın inkişafında maraqlı olduğunu konkret addımlarla təsdiqləyir. Əsas məqsəd bölgədə dayanıqlı sülhün və inkişafın təmin edilməsidir. Azərbaycan regional əməkdaşlığın aparıcı qüvvəsi kimi diqqət mərkəzindədir. Xəzəryanı ölkələr arasında dostluq və əməkdaşlıq, qarşılıqlı hörmət və etimad, eləcə də ölkələrin suverenliyinə hörmət mövcuddur. 2018-ci ildə Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı Konvensiyanın imzalanması regional əməkdaşlığa böyük töhfə kimi dəyərləndirildi. Həmin vaxtdan ötən dörd ilə yaxın zamanda Xəzəryanı dövlətlər arasında həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin inkişafına diqqət yetirmək kifayətdir. Əlaqələrin müxtəlif istiqamətlər üzrə möhkəmləndirilməsi, yeni əməkdaşlıq formatlarının yaradılması ümumilikdə regional sabitliyin, təhlükəsizliyin təmin edilməsi, ölkələr arasında iqtisadi-ticari əlaqələrin, enerji və nəqliyyat sahəsində mövcud olan əməkdaşlığın daha da inkişaf etdirilməsi və digər aktual məsələlərin həlli mühüm əhəmiyyət kəsb edir.

Türkmənistanda 2022-ci il iyunun 29-da keçirilən Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında dövlət başçısı İlham Əliyev diqqəti bir daha sahilyanı ölkələr arasında əlaqələrin dünəninə baxış fonunda qarşıdakı dövrün hədəflərinə yönəltdi. Bildirdi ki, Azərbaycan ölkələrimizin Xəzərdə qarşılıqlı fəaliyyətinə böyük əhəmiyyət verir. Hər zaman Xəzəri təhlükəsizlik, sülh dənizi adlandıran, sabitliyin təməlində ikitərəfli və çoxtərəfli münasibətlərin dayandığını bildirən Prezident İlham Əliyev dənizin hüquqi statusu ilə bağlı sahilyanı ölkələr arasında uzun illər mövcud olan ziddiyyətlərin qarşılıqlı əməkdaşlıq, xüsusi etimad və ehtiramla əvəz olunmasından məmnunluğunu ifadə edir.

Bölgədə birgə fəaliyyətin əsasını Xəzəryanı dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə hörmət və bir-birinin daxili işlərinə qarışmamaq prinsipləri təşkil edir. Region ölkələri xalqlarının rifahının yüksəldilməsinə yönəlmiş bir çox beynəlxalq və regional layihələrin əsasını da qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın inkişafı, investisiya mühitinin yaxşılaşdırılması, etibarlı və təhlükəsiz kommunikasiyaların qurulması, yüksək rentabelli və ekoloji təmiz texnologiyaların cəlb edilməsi üçün əlverişli şəraitin yaradılması istiqamətində birgə çalışmaq niyyəti təşkil edir. Xəzər ətraf ölkələrin nəqliyyat infrastrukturunun genişlənməsi, xidmətlərin və daşımaların keyfiyyətinin yaxşılaşdırılması üçün mühüm mənbədir. Dənizin sahillərində salınmış limanlardan istifadə qabiliyyətinə görə də Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib.

Xəzər regionunda ticarət-iqtisadi, ekoloji, elmi, humanitar, nəqliyyat və tranzit sahələrində çox böyük inkişaf potensialı var. Şimal-Cənub Nəqliyyat Dəhlizinin yaradılması baxımından strateji əhəmiyyətə malikdir. Xəzəryanı dövlətlər arasında praktiki əməkdaşlığın dərinləşdirilməsi, daha geniş mənada - çoxqütblü dünya düzəninin formalaşması, dünya inkişafının yeni mərkəzlərinin mövqeyinin möhkəmləndirilməsi kontekstində də aktualdır. Xəzəryanı ölkələrin birgə fəaliyyəti Avrasiya qitəsində təhlükəsizliyin, sabitliyin və davamlı inkişafın təmin edilməsinə mühüm töhfə verir. Xəzəryanı ölkələr arasında dostluq və mehriban qonşuluq münasibətləri, o cümlədən BMT, ATƏT, İslam Əməkdaşlığı Təşkilatı, Türk Dövlətləri Təşkilatı, MDB və İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində ikitərəfli və çoxtərəfli əməkdaşlıq regionda sabitliyin və təhlükəsizliyin mühüm amilidir. Azərbaycan Cənubi Qafqazda yeganə müsəlman ölkəsi olmasına baxmayaraq, Xəzəryanı dövlətlərdən dördündə müsəlman, birində xristian əhali üstünlük təşkil edir. Bu ölkələrin ikisi türkdilli respublikalardır. Azərbaycanın Rusiya və İranla iqtisadi əlaqələri Qazaxıstan və Türkmənistana nisbətən daha çox inkişaf edib. Burada Rusiya və

İranın regiondakı iri iqtisadiyyata malik ölkə olmaları, bu dövlətlərlə quru sərhədin olması da əsas rol oynayır. Ancaq siyasi və digər sahələrdə Qazaxıstanla da yaxşı əməkdaşlıq münasibətləri qurulub. Türkmənistanla münasibətlər isə yeni inkişaf mərhələsindədir.

Xəzəryanı dövlətlər arasında ikitərəfli əlaqələrin genişlənməsi onların beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlığının yeni prioritetlər üzrə inkişafında mühüm rol oynayır. Azərbaycanın malik olduğu təbii resurslardan səmərəli istifadə etməsi bugünkü reallıqlarımızın əsasını təşkil edir. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə dünya iqtisadi sisteminə inteqrasiyanın əsası qoyuldu. Regional çərçivədə qurulan əməkdaşlığın coğrafiyası illər keçdikcə genişlənərək 2014-cü ildə Cənub Qaz Dəhlizinin təməlinin qoyulması, 2018-ci ildə bu nəhəng layihənin rəsmi açılışının keçirilməsi, nəhayət, 2020-ci il dekabr ayının 31-də TAP-ın icrası ilə CQD-nin tam istifadəyə verilməsi başa çatdı. Azərbaycan iştirakçısı və təşəbbüsçüsü olduğu hər bir layihənin uğurlu sonluqla başa çatmasını əməli işi ilə təsdiqləyir.

Xəzər dənizinin dayazlaşması, onun bioloji resurslarının qorunma problemləri narahatlıq doğurur. Azərbaycan Xəzərdə ekoloji vəziyyətin yaxşılaşdırılmasına hər zaman xüsusi diqqət ayırır, bu istiqamətdə ən müasir üsullardan istifadə edir. Xəzərlə bağlı problemlərin həllinə daim öz töhfəsini verir. Dövlətin bu istiqamətdə, xüsusilə neft-qaz əməliyyatlarının həyata keçirildiyi zaman Xəzər dənizinin çirklənməsinin qarşısını alması diqqət çəkir. Xəzər dənizinin bərpaolunan enerji mənbələrinin, ilk növbədə, külək enerjisinin inkişafı üçün böyük potensialın olduğunu nəzərə alan ekspertlər əmindirlər ki, bu regionun "yaşıl hidrogen" istehsalı mərkəzinə çevrilməsi üçün hər cür şansı var. Qeyd edək ki, Beynəlxalq Enerji Agentliyi (BEA) 2030-cu ildən 2050-ci ilə kimi gələcəyin enerjidaşıyıcısı hesab edilən "yaşıl hidrogen" bazarında əhəmiyyətli artımın müşahidə ediləcəyini proqnozlaşdırıb. Onun istehsalı ilə 30-dan çox ölkənin məşğul olması nəzərdə tutulur. Hazırda beş Xəzəryanı ölkədən Qazaxıstan və Azərbaycan "yaşıl hidrogen"ə görə gələcəyini həmin dənizə bağlayır. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana dövlət səfəri çərçivəsində tərəflər Xəzər dənizinin dibi ilə fiber-optik kommunikasiya xəttinin çəkilməsi üzrə birgə işlərin intensivləşdirilməsi, Qazaxıstan neftinin Azərbaycan ərazisi vasitəsilə nəqlinin artırılması, Trans-Xəzər nəqliyyat marşrutunun inkişafı, enerji və bərpaolunan enerji mənbələri sahəsində perspektivli layihələrin həyata keçirilməsini müzakirə ediblər. Qazaxıstan Prezidenti vurğulayıb ki, COP29-un müvafiq səviyyədə keçirilməsini dəstəkləyir və son məqsədə nail olmaq üçün lazımi səylər göstərəcəkdir.

Xəzər hövzəsi regionunda reallaşdırılan və nəzərdə tutulan perspektiv layihələr özlüyündə cəlbedici görünə bilər. Lakin əmin-amanlıq, siyasi sabitlik olmadan nə hansısa bir layihəni həyata keçirmək, nə də ondan fayda götürmək mümkündür. Regionun coğrafi üstünlüklərini, təbii potensialını ölkələrin, xalqların mənafeyinə yönəltmək üçün, ilk növbədə, dövlətlər arasında qarşılıqlı inam, etimad mühiti yaradılmalıdır.

Bu baxımdan, Azərbaycanın nümayiş etdirdiyi mövqe hamı üçün yaxşı nümunə ola bilər. Azərbaycanın çoxvektorlu xarici siyasət kursunun əsas paradiqmalarından biri regional əməkdaşlığı daha da dərinləşdirməkdən ibarətdir. Respublikamız Prezident İlham Əliyevin siyasi iradəsi əsasında daim o mövqedən çıxış edir ki, Xəzər hövzəsi sülh, iqtisadi çiçəklənmə, qarşılıqlı inam regionuna çevrilsin, xalqlar əmin-amanlıq şəraitində yaşasınlar. Sahilyanı ölkələr arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələri Xəzər dənizində sabitliyin və təhlükəsizliyin mühüm amilidir.